

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 175 (23.817)

*23 sentyabr 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella ilə görüşmüşdür.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı əlaqələrdən bəhs etmiş, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşadığını bildirmişdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni texnologiyaların tətbiqi və internet təminatı, eləcə də ərzaq və enerji təhlükəsizliyi sahəsində görülən işləri diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Argentina arasında əlaqələrin, xüsusilə də universitetlərarası əməkdaşlığın inkişafı üçün potensialın olduğunu vurğulamışdır.

Göstərilən diqqətə və səmimi münasibətə görə minnətdarlıq edən Serxio Osvaldo Perez Qunella Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etmişdir. Muxtar respublikaya səfərinin əhəmiyyətini vurğulayan diplomat əcnəbilər üçün Naxçıvanın olduqca cəlbedici olduğunu və muxtar respublikanın inkişafının bir çox sahədə əməkdaşlıq üçün geniş imkanlar açdığını bildirmişdir.

Görüşdə qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmış, xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Argentina Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində olub



Argentina Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. İkitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev qonağı salamlayaraq universitetdə görməkdən məmnunluq duyduğunu bildirib. Rektor ali təhsil ocağının maddi-texniki bazası, müasir tədris metodları, ingilis dilli ixtisasın da uğurla tədris olunmasından danışıb. Qeyd edilib ki, əcnəbi tələbələrin sayına görə ölkə universitetləri sırasında öncüllüyünü qoruyan ali təhsil ocağında 1500-ə yaxın əcnəbi tələbə təhsil alır. Bildirilib ki, ali təhsil ocağında 7000-ə yaxın tələbə müxtəlif ixtisaslara yiyələnir ki, onlar universitetin ictimai-mədəni həyatında fəallıqları ilə də seçilir. Elbrus İsayev universitetin ikili diplom layihələri, dünyanın nüfuzlu elmi nəşrlərinin həyata keçirilməsi istiqamətində əməkdaşlıq əlaqələrindən danışıb. Bildirilib ki, rəhbərlik etdiyi ali təhsil ocağı "Times Higher Education" versiyası üzrə aparılan reytinq üzrə artıq dünyanın nüfuzlu universitetləri sırasındadır. Rektor ali təhsil ocağının 2 hektar ərazisində inşa olunmağa başlanan və ölkə universitetləri arasında ilk model kimi mühüm əhəmiyyət daşıyan texnoparkdan danışıb.

Səmimi görüşə və ali təhsil ocağı ilə bağlı verilən dolğun informasiyaya görə təşəkkürünü bildirən səfir burada olmaqdan məmnunluq ifadə edib. Diplomat ölkələrarası münasibətlərin gələcəkdə daha da inkişaf etdirilməsində universitetlərarası əlaqələrin rolunun böyük olacağını vurğulayıb. Diqqətə çatdırılıb ki, ali təhsil ocağında keçirilən görüşün məqsədi gələcəkdə Naxçıvan Dövlət Universiteti ilə Argentina universitetləri arasında təhsil sahəsində qarşılıqlı əməkdaşlığa nail olmaqdır.

Görüşdə texnopark sahəsində birgə əməkdaşlıq, akademik mobillik, birgə elmi nəşrlər, mühəndislik proqramları çərçivəsində texniki sahədə əməkdaşlıq layihələri, robotexnika, nanotexnologiya, elektrotexnika sahələrində birgə layihələr müzakirə mövzusu olub.

Səfir universitetin xatirə kitabına ürək sözlərini yazıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Medalların təqdimat mərasimi keçirilib

Dünən Naxçıvan Şəhər İcra Hakimiyyətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş, şəhid olmuş və xəsarət almış qəhrəmanlarımıza medal və vəsiqələrin təqdim edilməsi məqsədilə tədbir keçirilib.



Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açaraq bildirib ki, bu gün ölkəmizdə və onun ayrılmaz hissəsi olan muxtar respublikamızda hər bir sahənin inkişafına dövlətimizin hərtərəfli diqqət və qayğısı vardır. Bu qayğının başlıca istiqamətini bizim milli ordumuz, əsgərlərimiz təşkil edir. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər muxtar respublikamızda da uğurla davam etdirilir. Diyarımızın etibarlı müdafiəsinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, hərbçi ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müntəzəm olaraq sərhəd bölgələrində, hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin həyat şəraiti ilə maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə, onlarda vətənpərvərlik hisslərini daha da gücləndirmişdir. Bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri tarixi ədaləti bərpa edərək torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan Ordusunun ən böyük gücü isə Vətənin mərd oğulları, cəsur qızları, vətənpərvər övladlarıdır. Bu mənada, Vətən uğrunda qəhrəmanlıq vuruşaraq şəhid olan və döyüşdən qəhrəman kimi ayrılan, bizim hər birimizə qalib ölkənin vətəndaşı kimi qürur bəxş edən cəsur, igid, qorxmaz Azərbaycan oğullarına xalqımız daim minnətdar olacaqdır.

Qeyd olunub ki, Vətən müharibəsində böyük şücaət və qəhrəmanlıq göstərmiş mayor Həsənov Sadiq Əli oğlu, baş leytenant Zeynalov Elnur Elsevər oğlu, baş leytenant Əlizadə Fuad Nazim oğlu, baş leytenant Niftalıyev Arif Hüseyn oğlu, əsgər Məmmədzadə Pərviz Zahid oğlu, əsgər Məmmədov Araz Qəhrəman oğlu, əsgər Eyvazov İslam Həsən oğlu, əsgər İbrahimov İbrahim Etibar oğlu, əsgər Süleymanov Mövləddin Mehman oğlu, əsgər Əliyev Samir Məmməd oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunublar.

Mirsənani Seyidov vurğulayıb ki, bizim qələbəmiz Qarabağı heç vaxt görməyən 19 yaşlı əsgərin torpaq sevgisi, Birinci Qarabağ müharibəsində silahdaşlarını itirən zabitin qisas yanğısı, xalqımızın azadlıq arzusu idi. Bu arzunu çin etmək uğrunda qan tökül, can verən igid oğullarımızın hər birini minnətdarlıqla yad edirik. Şəhid olanlara Allahdan rəhmət diləyirik.

Sonra Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan şəhər idarəsinin rəisi, mayor Anar Aqilov çıxış edərək bildirib ki, düşmənin 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsi başladı. Nəticədə, işğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, zabit və əsgərlərimizin, qazilərimizin qanı və canı bahasına azad olundu. Şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç zaman unutmayacağıq.

Sonda Vətən müharibəsində şəhid olmuş, iştirak etmiş və xəsarət almış şəxslərin valideynlərinə və özlərinə medallar təqdim edilib.

**✍ Məcid RƏŞADƏTOĞLU**

***"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti və Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının əhəmiyyəti" mövzusunda maarifləndirici tədbir keçirilib.***

## Avtonəqliyyat vasitələrinin icbari sığortasının əhəmiyyətindən bəhs edən maarifləndirici tədbir

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Heydər Əliyev tədbiri açaraq bildirib ki, "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti tərəfindən digər rayonlarda olduğu kimi Babək rayonunda da tədbirlər keçirilir və bu tədbirlərin məqsədi sığorta sistemini daha da inkişaf etdirmək, əhalinin sığorta sistemindən yararlanmasıdır.

"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsini icra edən Tural Ələkbərov bildirib ki, muxtar respublikamızda Ali Məclis Sədrinin diqqət və qayğısı ilə bütün sahələrdə olduğu kimi, sığorta sektorunun inkişafı üçün də geniş imkanlar yaradılıb. Görülmüş tədbirlər vətəndaşların sığorta sisteminə olan inam və etibarını daha da artırıb. "Naxçıvansığorta" ASC ilk regional sığorta şirkəti olaraq 2014-cü ildə təsis edilib və Maliyyə Bazarlarına Nəzarət orqanının müvafiq lisenziyası əsasında sığorta fəaliyyətini uğurla həyata keçirir. Şirkət ötən 7 il ərzində sığorta bazarında etibarlı mövqe tutub, müştərilərinə yüksəkkeyfiyyətli xidmətlər göstərməklə nüfuzlu tərəfdaşlar qazanıb. "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti baş ofislə yanaşı, Bakı şəhərində və muxtar respublikamızın digər bölgələrində satış təmsilçiləri fəaliyyət göstərir. Şirkət 6 könüllü və 2 icbari sığorta növü üzrə vətəndaşlara xidmət göstərir.

"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin üzvü vəzifəsini icra edən Vüsal Məmmədov vurğulayıb ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun xüsusi bölməsinin 4-cü fəslində nəzərdə tutulub. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının əhəmiyyəti ondan ibarətdir ki, sığorta hadisəsi baş verdikdə qarşı tərəfə vurulan zərərin müəyyən qisminin aradan qaldırılması təmin edilir. Belə ki, fiziki şəxslərin sağlamlığına dəyən zərərə görə sığorta məbləği bir hadisə üzrə 50 min manatdan çox olmamaq şərtilə, bir fiziki şəxsin sağlamlığına dəyən zərər üzrə 5000 manat təşkil edir.

Çıxışlarda qeyd olunub ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığortahaqqı məbləğlərinin hesablanması qaydası maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyənləşdirilir.

Sonra tədbir iştirakçılarının mövzu ilə bağlı sualları cavablandırılıb və onlara şirkətin əməkdaşları tərəfindən məlumat vərəqələri paylanılıb.

**Xəbərlər şöbəsi**

*Qədim Şərur torpağı da digər bölgələrimiz kimi özünün inkişaf mərhələsini yaşayır. Rayon mərkəzində və kəndlərdə istifadəyə verilən müxtəlif təyinatlı obyektlər, fəaliyyətini genişləndirən, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan emal və istehsal müəssisələri, təsərrüfatın ayrı-ayrı sahələrinin inkişafı Şəruru tanınmaz dərəcədə dəyişdirib, gözəlliyə qovuşdurub. Belə tədbirlər hesabına yeni iş yerləri açılıb, əhalinin gün-güzəranı yaxşılaşıb, həyat səviyyəsi yüksəlib. Rayon sakinləri bölgənin sosial-iqtisadi inkişafına töhfələrini vermək üçün əzmkarlıq göstərir, səy və bacarıqlarını əsirgəmirlər. Rayonun kənd yaşayış məntəqələri ilin bu vədəsində daha füsunkar olur. Şəhriyar kəndi də bu cəhətdən istisna deyil.*

*Müasirləşən kəndlərimiz*

## Vətənin bir parçası olan bu kənd dövlətimizin hərtərəfli qayğısı sayəsində xoş və firavan günlərə qədəm qoyub

Payızın ilk günlərinin birində bu yaşayış məntəqəsinə üz tutmaqda məqsədimiz bu yaşayış məntəqəsi sakinlərinin gün-güzəranı, son illərdə kəndlərimizə göstərilən qayğı müqabilində insanların yaşayış tərzi ilə yaxından tanış olmaq idi.

Kənddə geniş quruculuq işləri aparılıb, yol yenidən qurulub, ümumtəhsil və uşaq musiqi məktəbləri üçün yeni binalar, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib. Məktəbin direktoru Oruc Baxşalıyev deyir ki, 224 şagird yerlik ikimərtəbəli məktəbdə 16 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı vardır. STEAM kabinəsi 1 elektron lövhə, 2 kompüter, 3D printer olmaqla, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təchiz edilib.

Kitabxana fondunda 1315-i dərslik və 2213-ü bədii ədəbiyyat olmaqla, 3528 kitab vardır. Ölkə və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri, elektron kitab bazası və oxunması zəruri olan kitablardan ibarət guşə şagirdlər üçün geniş mütaliə imkanları açır.

Məktəbdə quraşdırılan 4 müasir elektron lövhə və 22 kompüter tədrisin təşkilində yeni texnologiyalardan səmərəli istifadəyə, distant təhsilin tətbiqinə, eləcə də muzeylərlə interaktiv əlaqələrin qurulmasına imkan verir.

Məktəbin müəllimi Sevda Seyidova bildirdi ki, muxtar respublikada çalışan müəllimlər ölkə Prezidenti və Ali Məclis Sədrinin qayğısını həmişə hiss edirlər. Əməkhaqları dəfələrlə artırılıb, öz fəaliyyəti ilə seçilən müəllimlərin əməyi yüksək qiymətləndirilib, fəxri adlara layiq görülüb, onların fəaliyyəti üçün zəruri şərait yaradılıb. Bizim məktəbimizdə də yaradılan şərait şagirdlərin daha yaxşı təhsil almalarına, bilikli və vətənpərvər ruhda tərbiyə olunmalarına, müəllimlərə isə daha yaxşı tədris aparmağa geniş imkanlar açır.

Şəhriyara bir ayrı gözəllik verən əzəmətli tikililərdən biri də musiqi məktəbinin binasıdır. Kənddə gənclərin istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili istiqamətində uşaq musiqi məktəbi mühüm əhəmiyyətə malikdir.

İkimərtəbəli məktəb binasında müəllimlər otağı, musiqi ədəbiyyatı, solfecio, nağara, qarmon, kamança, tar, fortepiano sinifləri olmaqla, ümumilikdə, 18 otaq, 40 yerlik konsert zalı, kitabxana, elektrik otağı və qarderob vardır.

Burada fəaliyyət göstərən müəllimlərin hər birinin üzündə sevinc, təbəssüm görünür. Hansı müəllimin fikrini öyrənmək istədim, bu şəraiti onlara yaradan dövlətimizə minnətdar olduqlarını bildirdi. Onlara göstərilən diqqət və qayğıdan ruhlanaraq gənc musiqiçilərin yetişdirilməsi üçün səylə çalışacaqlarını, yaradılan şəraitdən səmərəli istifadə etməklə üzərlərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcəklərini dilə gətirdilər.

Ölkəmizdə dövlət siyasətinin əsas istiqamətini vətəndaşların sağlamlığı təşkil edir. Muxtar respublikada da müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası insanların sağlamlığının qorunması üçün geniş imkanlar açır. Müasirləşmiş kəndə gözəllik bəxş edən binalardan biri də Şəhriyar kənd həkim ambulatoriyasıdır. Ambulatoriyada hərtərəfli şərait yaradılıb.

Kənd sakinləri üçün yaradılmış belə şərait bunu deməyə əsas verir ki, muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar nəticəsində səhiyyə sistemi bu gün sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, insan sağlamlığının qorunmasına və bu gözəl diyarda yaşamaq üçün ömürlərin uzanmasına xidmət edir.

Şəhriyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Cümşüd Zahirli ilə görüşüb yaradılan iş şəraiti ilə tanış olduq. Bildirdi ki, 3 mərtəbəli binada dövlət qurumları əhaliyə səmərəli xidmət göstərir. Mərkəzdə rabitə evi, polis sahə və baytarlıq məntəqələri, 5027 ədəbiyyat fonduna malik olan kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, statistika və arxiv otaqları, 44 yerlik zal vardır. Şəhriyar kəndində baytarlıq xidmətinin təşkilinə də xüsusi diqqət yetirilir.



Öyrəndik ki, bu gün Şəhriyarda əhalinin ixtiyarında 221 hektar pay torpağı var. Kənd sakinləri bələdiyyə fondunda olan 9 hektar sahədən də istifadə edirlər. Torpağa məhəbbət hissinin hesabınadır ki, bir qarış torpaq sahəsi belə, əkilməmiş saxlanılmır. Kənd adamları yaxşı bilirlər ki, torpaq ən qiymətli sərvət, ruzi-bərəkət ünvanı, halal qazanc mənbəyidir.

Torpaq mülkiyyətçisi Fərhad İsmayılov söhbətində bildirdi ki, ölkəmizdə aparılan torpaq islahatları nəticəsində çörəyi torpaqdan çıxan kəndli neçə illərdir, nəyi əkib-becərəcəyinə özü qərar verir. Bu da o deməkdir ki, xüsusi mülkiyyət sahibi olduqdan sonra kəndli torpaqdan daha səmərəli istifadə etməyə çalışır. Bir sözlə, kəndli torpağın cəfasını çəkir ki, səfasını sürsün. Dövlətimizin bu sahəyə dəstəyi də ildən-ilə artır. Elə rayonumuzu götürək. Məhsulumuzu ilboyu saxlamaq üçün iri soyuducu anbarlar tikilib, suvarma kanalları çəkilib. Artezianlar vurulub. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon bazası yaradılıb. Odur ki, kənd təsərrüfatı texnikaları sarıdan heç bir korluğumuz yoxdur. Hər il keyfiyyətli toxum alır, vaxtlı-vaxtında mineral gübrələrlə təmin olunuruq. Bütün bunlar aqrar sahənin inkişafına, torpaqla təmasda olan əkinçilərin əməyinin stimullaşdırılmasına xidmət edir.

İcra nümayəndəsi onu da xüsusi vurğuladı ki, meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi üçün də kənddə böyük imkanlar var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramı bu kəndin sakinlərini də ruhlandırıb. Odur ki, onlar əkin sahələrini ilbəil genişləndirirlər. Artıq bu ilin bar-bəhrəsini bazarlara çıxaran torpaq mülkiyyətçiləri vaxtdan səmərəli istifadə edirlər. Kənddə ət və süd məhsulları sarıdan da heç bir problem yoxdur.

Qəlbimizdə xoş duyğular və təəssüratlar oyadan Şəhriyar kəndinin bu günü ilə haqlı olaraq qürur hissi keçirən kənd adamları bu yurd yerinə qəlbən bağlanıblar. Çünki onlar üçün ata-baba əmanəti, Vətənin bir parçası olan bu kənd dövlətimizin hərtərəfli qayğısı hesabına xoş və firavan günlərə qədəm qoyub. Kənd adamları xoş günlərin asan başa gəlmədiyini dərindən dərk edir və bu büsatın qədrini bilirlər. İnanırlar ki, Şəhriyar kəndinin sabahı bundan da gözəl olacaq.

**Sərxan İSMAYILOV**

*İstehsal müəssisələri*

## Keyfiyyətli ət və ət məhsulları istehsal edilməsi müəssisənin əsas iş prinsipidir









İllər öncə hər dəfə doğma diyara gələndə burada yaşayan qohum, tanışlar oradan ət məhsulları – əsasən də kolbasa gətirməyimi istəyirdilər. Amma bir neçə ildir ki, heç kim bunu istəmir. Bu hal mənə çox maraqlı gəldi və tanışlardan soruşanda ki, niyə heç biriniz ət məhsulları istəmirsiz, aldığım cavab, sözün düzü, marağıma səbəb oldu. Naxçıvana növbəti gəlişimdə burada istehsal olunan ət məhsullarının dadına baxdım. Doğrudan da, çox ləzzətli idi. Ət məhsulları kompleksi də istehsal və xidmət baxımından yüksək şəraitə malik bir müəssisədir. Artıq hər dəfə doğma diyarıma qonaq gələndə bu müəssisədə istehsal olunan müxtəlif çeşiddə keyfiyyətli ət və ət məhsullarından Bakıda yaşayan dost-tanışa sovqat aparıram. Bu sözləri Bakı şəhərində yaşayan və Naxçıvana qonaq gələn həmyerlimiz Əli Məmmədovdan eşidəndə bir anlıq keçmişə qayıdıram. Kolxoz, sovxoz vaxtlarına. Hansı ki çox işləsək də, sağılan qaymağını sovetlərin xəzinədarları, üzsüz hissəsini isə zəhmətkeşlər yeyirdi. Kolxozun əkin sahələri, tövlələri var-dövlətlə dolub-daşırdı. Amma insanlar o fermalardakı inəklərin nə ətindən, nə də ki südündən yetərincə faydalana bilirdi. Ümid qışa qalırdı ki, bəlkə, buz tutmuş yolda inəyin biri yıxılıb ayağını sındıra və kolxoz məcbur qalıb o inəyi kəsə və kənd sakinləri arasında bölə. Kolxozların tövlələri mal-qara ilə dolu olsa da, muxtar respublikamızda bir dənə belə olsa, ət məhsulları müəssisəsi yox idi. Bunun bir səbəbi var idi – asılılıq yaratmaq. Müstəqillik qazandığımız illərdən sonra hər sahədə olduğu kimi, bu istiqamətdə də xeyli iş gördülər. Həmin illərdə kimsə xeyir iş görəndə bir neçə gün əvvəldən Bakıya kolbasa sifarişi verməli olurdu. Bu gün isə tamam başqa bir mənzərə ilə qarşılaşırıq. Muxtar respublikamızda sahibkarlıq mühitinin formalaşması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun nəticəsində əhalinin ərzaq təhlükəsizliyi təmin olunub. İllər öncə ət məhsullarına olan tələbatımızı ödəmək, dadlı-tamlı bir məhsul əldə etmək üçün muxtar respublikadan kənara çıxırdıqsa, indi bunun tamam əksini görürük. Daxili bazarda yüksəkkeyfiyyətli ət məhsulları istehsal edilir. Bu gün Naxçıvanda istehsal olunan ət məhsulları respublikamızda və qonşu ölkələrdə adla deyilir. Artıq Naxçıvan brendlərinin arasında qovurma ilə yanaşı, burada istehsal edilən kolbasanın da adı çəkilir. Belə müəssisələrdən biri, "Gəmiqaya Ət Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti də dövlət qayğısından bəhrələnmişdir. Babək rayonunun Qoşadizə kəndi ərazisində istehsal müəssisəsi üçün torpaq sahəsi ayrılmış, 2012-ci ilin iyun ayından burada müasir layihə əsasında yeni ət məhsulları kompleksinin tikintisinə başlanılmış və 2013-cü ilin may ayında istifadəyə verilmişdir.

Ötən günlərdə "Gəmiqaya Ət Məhsulları Kompleksi"ndə olduq. Ramin Əliyev 10 ilə yaxındır ki, burada çalışır. O deyir:

– İstehsal sahəsində 14 çeşid kolbasa və sosiska istehsal olunur. Keyfiyyətli məhsul istehsalı üçün Türkiyə, Avstriya və İtaliyadan idxal edilmiş avadanlıqlar alınıb. İstehsal sahəsi gündə bir ton ət məhsulu istehsaletmə gücünə malikdir. İstifadə olunan xammalın 80 faizi yerli məhsullardandır. Bütün iri və xırdabuynuzlu heyvanların kəsimində dini qayda-qanunlara riayət olunan müəssisədə istehsal edilən kolbasa və sosiskalar halallıqla hazırlanıb süfrəmizə gətirilir. Müəssisənin yaradılmasında başlıca məqsəd daxili bazarı yüksəkkeyfiyyətli, rəqabətədavamlı ət və ət məhsulları ilə təchiz etməkdən ibarətdir. İstifadə olunan xammalın mütəmadi olaraq laborator müayinədən keçirilməsi burada keyfiyyətli kolbasa istehsalına imkan verir. Müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə alınmış soyuducu kameralı xüsusi avtomaşınlardan səmərəli istifadə olunur. Hazırda müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları, hisə verilmiş və bişirilmiş kolbasa məmulatları, eləcə də sosiska istehsal olunur. Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra satışa buraxılır.

Müəssisədə çiy dönər sifarişləri də qəbul edildiyini, daim təzə ətlə təmin olunması üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlar ilə əlaqələr yaradıldığını öyrənirik. Muxtar respublikanın ayrı-ayrı bölgələrində yaşayan əhalidən bazar qiymətlərinə uyğun olaraq iribuynuzlu və xırdabuynuzlu heyvanlar alınmaqla xammal tədarük edilir. Dönər hazırlayan Səfər Əliquliyev beş ilə yaxındır, burada çalışır. O deyir ki, həm dönər, həm də başqa məhsulların hazırlanmasında yerli sakinlərdən alınan ətdən istifadə edilməsinə üstünlük verilir. Burada gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirmək mümkündür. Müxtəlif dondurucu temperatura malik 8 soyuducu kamera yaradılıb, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınıb.

Burada olarkən onu da öyrənirik ki, artıq iki ildir, qovurma istehsalına da başlanılıb. Bir və iki kiloqramlıq saxsı qablarda satışa çıxarılan məhsulun keyfiyyətinin yaxşı olması üçün əvvəlcədən qovurmalıq iribuynuzlu heyvanlar seçilir, bəslənir. Payızın ikinci ayından ət qovrulmağa başlanılır. Qovurmanın hazırlanmasından söhbət açan Ramilə Novruzova illərdir ki, aşbazlıqla məşğuldur.

Müsahibim deyir ki, qovurmanın keyfiyyətli, dadlı çıxması üçün üç şərtə əməl olunmalıdır: kəf təmiz yığılmalı, ət qaynadılanda və qızardılanda vaxtında götürülməli, bir də duzu qaydasında olmalıdır. Naxçıvan qovurması, adətən, iki-üçyaşlı qoç, yaxud erkək dana ətindən hazırlanır. Ənənəvi olaraq mis qazanlarda hazırlanan qovurmanı sərin yerdə şüşə və çuqun qablarda aylarla saxlamaq olar. Qovurma soyuducuda yox, quru, sərin yerdə saxlanılmalıdır.



Ət məhsulları kompleksində olarkən öyrəndik ki, heyvandarlıqla məşğul olan sahibkarlar istədikləri vaxt təsərrüfatında ətlik iribuynuzlu və xırdabuynuzlu heyvanları kompleksə nağd yolla sata bilirlər. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisədəki xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır.

Müəssisənin nəzdində fəaliyyət göstərən mağazanın xidmətlərindən istifadə edən alıcı Hüseyn Səfərov deyir ki, kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır.

*Bütün bunlardan belə qənaətə gəlmək olur ki, muxtar respublikamızda istehsal olunan məhsullara təkcə yerli əhali tərəfindən deyil, buraya gələn qonaqlar tərəfindən də böyük maraq göstərilir. Onu da bildirək ki, gələcəkdə müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.*

**Ramiyyə ƏKBƏROVA**

*Əfsanəyə dönən ömürlər*

## Şəhidlik məqamına yalnız seçilmişlər yüksəlir

Söz vaxtına çəkər, deyib atalarımız. 7 il öncə sentyabr ayında oldu onunla tanışlığımız. O zamanlar Culfa şəhərində müəllim kimi fəaliyyət göstərirdim. Naxçıvan şəhərində yaşadığım üçün gündəlik Culfaya gedib-gəlməli olurdum. Naxçıvan-Culfa avtobusu hər gün səhər saat $10^{00}$-da Culfaya doğru yol alırdı. Bir gün gecikmişdim. Elə mən avtovağzala çatmaqda, avtobus da çıxmaqda idi. Avtobusun qarşısında Naxçıvan-Culfa yazısını oxuduqda qeyri-ixtiyari onu dayandırdım, çünki saat $10^{45}$-də başlayacaq dərsimə çatmalı idim. Avtobusu siması təbəssüm dolu bir gənc sürürdü. Sürücü olan tərəfə yaxınlaşıb, "ayaq üstə getməli də olsam, məni də aparın, mütləq getməliyəm", – dedim. Belə oldu Kənan Quliyevlə ilk tanışlığımız. Zamanla dərk elədim nə üçün o qədər arxayınlıqla sərnişinlərdən xahiş etdi oturacaqların birində mənə yer eləsinlər, – deyə. Çünki xoş rəftarı, mehriban davranışı ilə rayonda hər kəsin sevgisini, hörmətini qazanmışdı. Kimsə onun sözünü yerə salmazdı. O qədər səmimi, mehriban idi ki... Sərnişinlərə "anam", "bacım", "qardaşım" deyə müraciət edərdi. Heç unutmaram, qış fəsli idi, Culfanın sazağını-boranını qışda bu şəhərə yolu düşənlər yaxşı bilər. Həmin soyuq günlərin birində yenə Culfaya gedirdim. Avtovağzala çatdıq, sərnişinlər yavaş-yavaş enirdilər. Yaşlı bir xanım: – Kənan, xalan qurban, yüküm ağırdır, məni evimizə apararsan? Kənanın bu suala cavabı belə oldu: – Gülnaz xala, niyə aparmıram? Sən əyləş, camaat ensin, mən səni aparacam. Kənan sonra mənə tərəf boylanaraq: "Müəllimə, yolum siz gedən tərəfdir, hava soyuqdur, istəyirsiniz siz də əyləşin, yolüstü siz də enərsiniz", – dedi. Çox sevindim, çünki avtovağzaldan dərs dediyim məktəbə 15 dəqiqədən artıq piyada yol getməli idim. Culfadakı 2 illik müəllimlik fəaliyyətimdə Kənanın mehribanlığı, xoş rəftarı, insanlara qarşı səmimiyyəti ona olan hörmətimi birə-beş artırmışdı.

... Onun şəhid xəbərini Naxçıvan Televiziyasında hər kəsin "Vaqif əmi" deyə çağırdığı "Kənanla fəxr edirəm, yüz oğlum olsa, yüzünü də Vətənə qurban verərdim", – deyən atasından eşitdim. Onda artıq redaksiyada işləyirdim. Çoxdan idi ki, nə Kənanı, nə də Kənanla bərabər eyni avtobusu növbəli sürən atası Vaqif əmini görürdüm. Atasının əlindəki fotoya diqqətlə baxdım, "Yox, bu mümkün deyil, axı Kənan hərbçi deyildi, bu necə ola bilər?" – deyə düşündüm. Bir kinolenttək Kənanın etdiyi yaxşılıqlar gözümün önündən keçdi. Özümdən asılı olmadan qeyri-ixtiyari məni ağlamaq tutdu.



Hələ də inana bilmirəm ki, o, şəhid olub. Amma bəzən də düşünürəm ki, o elə şəhidlik zirvəsinin aliliyini görməyə layiq oğul idi. Çünki şəhidlik məqamına yalnız seçilmişlər yüksələ bilər.

Neçə vaxtdır ki, onun yaşadığı evə getmək, ailəsi, onu boya-başa çatdıran ana-atası ilə söhbət etmək istəyirdim. Lakin bilirdim ki, buna mənəvi güc lazımdır. Getdim, şəhid anası İlhamə xala, yoldaşı Aysellə şəkillərinə baxdıq, onunla bağlı xatirələrdən danışdıq. Birlikdə gah kövrəldik, gah ağladıq, gah da onu xoş təbəssümlə andıq, qürurlandıq. İlahi, qəlbi həyat dolu belə insan necə olub axı həyatından keçməyi gözə alıb? Necə olub, insanları belə böyük ürəklə sevən, ailəsinə bu qədər bağlı olan bir oğul döyüşə getmək üçün könüllü olaraq müraciət edib? Bu sualın tək bir cavabı var: Vətənin qeyrətli, şücaətli, mərd oğlu Kənanın torpağa olan sevgisi, bağlılığı bütün sevgilərdən üstün olub...

...1992-ci il sentyabr ayının 11-də Culfa şəhərində dünyaya göz açan Kənan Quliyev məktəbi və hərbi xidməti başa vurduqdan sonra 2019-cu ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi hərbi hissədə sürücü olaraq fəaliyyətə başlamışdı. Vətən müharibəsi minlərlə oğul kimi Kənanın da torpaq, bayraq, millət sevgisini, düşmənə nifrət hissini daha da alovlandırmışdı. Vətən oğlu əsl döyüşçü kimi özünü od-alovlu cəbhəyə atdı. Adını Azərbaycanın şanlı hərb tarixinə yazdı. Xocavənd istiqamətində olan yüksəkliklərin alınması zamanı gedən döyüşlərdə şəhidlik zirvəsini fəth etdi. O zirvə indi tək övlad sahibi olan İlhamə ana və Vaqif atanın fəxarət ünvanıdır.

İlhamə ana deyir ki, səhər saat 5 idi, namaz üçün oyanmışdım. Kənanın yoldaşı gəldi ki, ana, Kənan iş üçün dağa gedir, gəldim Kənanı yol getdiyi üçün uğurlayam. Amma Kənan bu dəfə üzümə baxmadı. Çünki o, ilk dəfə idi ki, ailəsindən gizli bir iş görürdü, dağa deyil, döyüşə gedirdi. Kənan mənə döyüşə getdiyini narahat olmayım deyə deməmişdi. Bəlkə də, düşünmüşdü ki, getməyinə mane olacağam. Amma gedəndə məni bərk-bərk qucaqladı, qoxlaya-qoxlaya öpdü, qapıdan çıxarkən mənim üçün çoxlu dua elə, – dedi. Niyəsə bu sözdən sonra ürəyimə nisgil düşdü: "Kənan niyə belə dedi görəsən?"

Atası Vaqif Quliyev başını dik tutub, tək oğlu Kənan ona başucalığı gətirib çünki... Vaqif Quliyev deyir ki, mən onunla qürur duyuram, fəxr edirəm. 30 ildir, həsrətində olduğumuz torpaqlarımızın azad olunmasında oğlumun da payı var. Oğlum Vətən, torpaq, millət uğrunda şəhid olub, Vətən sağ olsun.

Yoldaşı Aysel xanıma sual verəndə ki, onu necə xatırlayırsan? Deyir ki, Kənanla 2 illik ailə həyatı ona dastan kimi gəlir. Düşünürəm: yəqin ki, bu dünyada elə bir həyat yoldaşı yoxdur. O istəyirdi ki, hər şeyin ən yaxşısı ailəsi üçün olsun, ailəsinə çox bağlı idi Kənan. O qədər ağır iş rejimi ilə hər an mənimlə maraqlanardı, zəng edərdi, kefimi soruşardı. İndi gözüm qalıb telefonda, hər zəng gələndə ürəyim sürətlə döyünür, elə bilirəm, odur zəng vuran. Səhər saat 5-də yuxudan oyanıb onu yola salardım, indi artıq adət olub məndə, hər gün səhər saat 5-də oyanıram yuxudan. Deyirəm, haradasan Kənan, mən axı sənin üçün oyanmışam. Gəl yenə səni işə yola salım. Axşam gözüm dikilir qapıya, deyirəm, bəlkə, indicə qapı açılacaq, Kənan gələcək. Hər gün 8-də işdən evə gələndə zəng edərdi, "evə nə lazımdır, ürəyiniz nə istəyir, alım gətirim?" – deyərdi. İndi hər gün saat 8-də o zəngi gözləyirəm...

Aysel xanım deyir ki, biz 2 gün sonra öyrəndik Kənanın döyüşə getdiyini. Telefonla danışdıq, dedi ağlama, bu yol kişi yoludur, qardaşlarım dardadır, mən buraya gəlməli idim. Son sözü o oldu ki, məni gözlə, qayıdacağam, mən onu gözləyəcəm. Çünki o mənə gözlə dedi, bilirəm, biz yenidən qovuşacağıq – cənnətdə...

Öz cəsarəti, qorxmazlığı, vətənpərvərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılar dəstəsində xidmət edən yoldaşları Kənanın rəşadətindən bəhs etdikcə fəxarət hissləri keçirməmək mümkün deyil.

Kənan Quliyevin döyüş yoldaşı Emin Nəcəfov deyir ki, Xocavənd uğrunda başlanan döyüşlərə deyə-gülə gedirdik. Düzdür, bilirdik, bu döyüş də çox çətin bir döyüşdür, amma hamımız inanırdıq ki, biz zəfər çalacağıq. Elə də oldu, Kənan və Kənan kimi igid oğulların qanı ilə geri qayıtdı 30 ildir, düşmən tapdağında olan torpaqlarımız.

Kənanın "Ay nənə, insana gülmək yaraşır" sözlərini xatırladıqca Xanım nənənin kədərli simasında indi də təbəssüm yaranır. Xanım nənə inanır ki, onun birinci oğul nəvəsinin ruhunu həmin istəyi yerinə yetirməsi şad edir. Nənənin söhbəti: – Cəbhəyə yollandığı günün səhərisi mənə zəng vurdu. Dedi ki, ay nənə, mən döyüşə gedirəm, ağlama arxamca, mənim üçün dua et ki, getdiyimiz yolu sağ-salamat, başı uca qayıdaq. Bir də səndən bir xahiş eləyim, atama tez-tez zəng vur, kefini soruş, qoyma fikir eləsin, mənim üçün darıxsın.

Gözümün ağı-qarası balam başı uca qayıtdı Vətəninə. Bizə bir ömür şəhid ailəsi adını miras qoydu. Mən fəxr edirəm ki, mənim balam şəhid oldu.

Kənan Quliyev Vətən müharibəsində mübarizliyi, igidliyi sayəsində uca zirvəni – şəhidlik zirvəsini fəth etdi. Qorxmazlığı ilə Azərbaycan xalqının qəhrəmanına çevrildi. Ailəsinin, dostlarının, tanışlarının, qohumlarının, bir sözlə, hər kəsin fəxarət yeri oldu Kənan. Elə mənim də...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid Kənan Vaqif oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Ruhun şad olsun, şəhidim, sən rahat uyu. Canını qurban verdiyin o torpaqlar azaddır indi...

**Gülcamal TAHİROVA**

## "Müasir Naxçıvan" dərs vəsaitinin təqdimatı keçirilib



*Naxçıvan Dövlət Universitetində "Şərq qapısı" qəzetinin baş redaktoru, Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti Mehriban Sultanın "Müasir Naxçıvan" dərs vəsaitinin təqdimatı keçirilib.*

Təqdimatı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev muxtar respublikanın ictimai-siyasi həyatını, sosial-iqtisadi inkişafını özündə əks etdirən, dövlətçilik, Azərbaycançılıq ideologiyası, hərbi-vətənpərvərlik ruhunda yazılmış məqalələrdən ibarət nəşri Naxçıvan jurnalistika məktəbinə mühüm töhfə olaraq dəyərləndirib. Qeyd edilib ki, yeni nəşr həm də 100 illik yubileyi qeyd olunan "Şərq qapısı"nın son illərdəki fəaliyyətinin yığcam hesabatı da sayıla bilər. Rektor müəllifin ali təhsil ocağında müəllim kimi fəaliyyətini də yüksək qiymətləndirərək kitabı Jurnalistika ixtisasının tələbələri üçün müasir jurnalistikanın tələblərini, qəzetçilik üslubunu, janr, dil spesifikasını öyrənmək baxımından qiymətli mənbə hesab edib. Rektor yeni nəşrin bu əhəmiyyəti nəzərə alınaraq universitet Elmi Şurasının 17 sentyabr tarixli qərarı ilə dərs vəsaiti təsdiq olunduğunu bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, 13 bölmə altında 80-ə yaxın məqalənin toplandığı kitab müasir Naxçıvanın publisistik xəritəsini əks etdirməklə bərabər aydın dövlətçilik mövqeyi və əqidəsinin, milli ideologiyaya sədaqətlə xidmətin təcəssümü olan mətbu nümunələrin məcmusudur. Akademik kitabda yer alan bir sıra məqaləni Naxçıvan mətbuatında siyasi publisistikanın mükəmməl nümunəsi adlandırıb. Qeyd olunub ki, "Müasir Naxçıvan" kitabında müəllifin müxtəlif illərdə "Şərq qapısı" qəzetində və mərkəzi mətbuat orqanlarında, Türkiyə mətbuatında dərc olunmuş bədii-publisistik yaradıcılıq nümunələri toplanıb. Muxtar respublikanın ictimai-siyasi həyatına nəzər salan, sosial-iqtisadi inkişafını əks etdirən, ordu quruculuğu və hərbi-vətənpərvərlik mövzusunda yazılmış, ulu öndərin ideyalarına sadiq şəkildə həyata keçirilən humanitar-siyasətin mahiyyətini açan analitik-siyasi, təhlili məqalələr, icmallar, oçerk, müsahibə, reportaj və yol qeydləri, yeni nəşr və tamaşa resenziyaları, ssenarilər oxuculara təqdim olunub. Yeni nəşrdə yer alan, ölkədə və muxtar respublikamızda aparılan mətbuat və informasiya siyasəti, Naxçıvanda elm və təhsilin inkişafı, oxunması zəruri olan kitablarla bağlı məqalələrdə mövzunun mahiyyəti üzə çıxarılaraq faktlara əsaslanan dolğun təəssürat yaradılır. Yeni nəşri Ali Məclis Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması ilə bağlı imzaladığı 2021-ci il 1 iyun tarixli Sərəncamın icrası istiqamətində də növbəti uğurlu addım hesab etmək olar. Jurnalistika ixtisası üzrə təhsil alan tələbələr bu dəyərli vəsaitdən istifadə etməklə müasir jurnalistikanın tələblərini, qəzetçilik üslubunun spesifik xüsusiyyətlərini də öyrənə bilərlər.



Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva kafedranın dosenti Mehriban Sultanın elm və təhsilin inkişafı ilə bağlı, xüsusilə ali təhsil quruculuğu, ziyalı mühiti, ziyalılarımız haqqında yazdığı məqalələri barədə danışıb və 2017-ci ildə universitetin 50 illik yubileyi münasibətilə nəşr etdirdiyi "Mənim universitet dünyam" kitabının da bu baxımdan qiymətli nəşr olduğunu bildirib. Müəllifin "Yeni yol" qəzeti ilə bağlı "Mollanəsrəddinçilər "Yeni yol"da", "Milli mətbuat tariximizdə "Yeni yol" qəzeti" kitablarının mətbuat tariximizin öyrənilməsi baxımından dəyərli nümunələr adlandırıb.

"Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov bildirib ki, müəllifin kitabının "Şərq qapısı" qəzetinin yüzillik yubileyi ərəfəsində nəşrə hazırlanması qəzetin dövlətçilik ideyalarının təbliği, ictimai-siyasi hadisələrə münasibət, muxtar respublikada uğurla reallaşdırılan sosial-iqtisadi, humanitar siyasətin mahiyyətini açmaq, çoxşaxəli və davamlı uğurları təqdim və təbliğ etmək baxımından təqdirəlayiq sayıla bilər.

Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov gərgin və məhsuldar jurnalistlik fəaliyyətinin bəhrəsi olan kitabın Naxçıvanşünaslığa dəyərli töhfə olmaqla bərabər Azərbaycanşünaslıq elmində də xüsusi dəyər qatacağına əminliyini ifadə edib, materialların, janr, mövzu etibarilə qruplaşdırılmasını mətnşünaslıq baxımından təqdirəlayiq hesab edib. Qeyd edilib ki, kitab gələcək jurnalistlər üçün mənbəşünaslıq yolunda uğurlu bir istiqamət ola bilər. Vurğulanıb ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap olunan kitab yüksək tərtibatı, fototəqdimatı, poliqrafik keyfiyyəti ilə də fərqlənir.

"Şərq qapısı" qəzetinin şöbə müdiri Nail Əsgərov, universitetin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi Məcid Əkbərov gənc jurnalistlər üçün bir ədəbi yol sayıla biləcək nəşrin onların gələcək fəaliyyətində mühüm əhəmiyyətə malik olacağını vurğulayıblar. Çıxış edənlər müəllifi təbrik edərək ona bundan sonrakı fəaliyyətində yaradıcılıq uğurları arzulayıblar.

Sonda müəllif muxtar respublikada elmə, təhsilə, jurnalistikaya göstərilən dövlət qayğısından danışaraq ərsəyə gələn kitabı yaradılan şəraitin bəhrəsi olaraq dəyərləndirib. Qeyd olunub ki, "Müasir Naxçıvan" kitabının əsl müəllifi inkişaf edən müstəqil Azərbaycan, onun Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyev ideyalarını sədaqətlə həyata keçirən QURUCU RƏHBƏRDİR. Müəllif muxtar respublikada jurnalistikanın inkişafına göstərilən hərtərəfli dövlət qayğısına görə Ali Məclisin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Müsahibə mərhələsi başlayıb

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 2019-cu il 8 may tarixli Qərarına uyğun olaraq sentyabrın 22-dən başlayaraq müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu müsabiqəsinin müsahibə mərhələsinə start verilib.

13-16 sentyabr tarixlərində keçirilən müsabiqənin test mərhələsində 302 namizəd 255 vakant vəzifədən 155-nin tutulması üçün biliklərini sınayıb və onlardan 235-i keçid balını toplayıb. Birinci mərhələdə müvəffəqiyyət qazanmış iştirakçılar müsahibə mərhələsində iştirak etmək hüququ əldə ediblər. Ayrı-ayrı vəzifələr üzrə ən sıx müsahibə vəziyyəti musiqi ədəbiyyatı (44), fortepiano (41), konsertmeyster-fortepiano (33), tar (24) və qarmon (23) ixtisaslarında yaranıb.

Müsahibənin keçirilməsi üçün Dövlət İmtahan Mərkəzindən 1, Mədəniyyət Nazirliyindən 1, muxtar respublikada fəaliyyət göstərən ali təhsilli müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Müsahibə mərhələsində müəllimə verilən tapşırıqların yerinə yetirilməsi üçün 30 dəqiqə vaxt ayrılır və müəllimin praktik hazırlığı, peşəkarlığı və ifaçılıq qabiliyyəti yoxlanılır.

Naxçıvan Muxtar Respublikasında dövlət musiqi təhsili müəssisələrinin ixtisaslı kadrlarla komplektləşdirilməsi və tədrisin keyfiyyətinin artırılması məqsədilə keçirilən müsabiqənin müsahibə mərhələsi oktyabrın 2-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Oxunması zəruri olan kitablar*

# Azərbaycanın pedaqoji fikir sahibləri xalqımızın maariflənməsində böyük rol oynamışlar

***Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı" təsdiq olunmuşdur. Ötən dövrdə həmin kitablar nəşr olunaraq muxtar respublikamızın bütün ümumtəhsil məktəblərinin kitabxanalarına verilmiş, oxunması zəruri olan kitablardan ibarət guşələr yaradılmışdır. Siyahıda diqqəti cəlb edən kitablardan biri də "Pedaqoji fikir tarixindən" kitabıdır. Bu kitab da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə yenidən nəşr olunmuş və muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin kitabxanalarına və pedaqoji heyətinə hədiyyə edilmişdir.***




Azərbaycan pedaqoji fikri zəngin və çoxşaxəli inkişaf yolu keçmişdir. Tarixin müxtəlif dövrlərində yaşayıb fəaliyyət göstərmiş böyük mütəfəkkirlər, maarifçilər, müəllimlər, şair və yazıçılar pedaqoji fikir tariximizi öz dəyərli əsərləri ilə daha da zənginləşdirmişlər. Onların təlim-tərbiyə və təhsillə bağlı fikirləri bu gün də öz aktuallığını qoruyur. Kitabda görkəmli maarifpərvər şəxsiyyətlərin, pedaqoqların pedaqoji görüşləri, təhsil məsələləri haqqında dəyərli fikirləri öz əksini tapmışdır. Təsadüfi deyil ki, pedaqoji fikir tarixinin öyrənilməsində mühüm rol oynayan kitab, həm də müəllimlərə müxtəlif tarixi dövrlərdə təhsilin və məktəbin problemləri ilə tanış olma imkanı verir.

"Pedaqoji fikir tarixindən" kitabında görkəmli şəxsiyyətlərimiz, maarifpərvər ziyalılarımız – Cəlil Məmmədquluzadənin, Məhəmməd Tağı Sidqinin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, Eynəli bəy Sultanovun, Məhəmməd ağa Şahtaxtlının, Məmməd Səid Ordubadinin əsərlərindən elm, təhsil, tərbiyə ilə bağlı seçmələr yer almışdır. Təqdim olunmuş əsərlər gənc nəsli mütaliəyə, elm öyrənməyə həvəsləndirir, təlim-tərbiyənin mahiyyəti, prinsipləri haqqında dolğun məlumatlar verir. Bu maarifpərvər insanlar xalqın istiqlaliyyətini yalnız məktəbdə, təhsildə görürdülər. Bakıda ilk dünyəvi məktəbin açılmasını xatirələrində qeyd edən Nəriman Nərimanov yazırdı: "...Bakıda bu məktəbi ilk açan iki cavan oğlan Qori Seminariyasının məzunları Mahmud bəy Mahmudbəyov və Sultan Məcid Qənizadə idi. Onlar Bakıda ilk rus-müsəlman məktəbini açdılar və uğurlarına görə "camaat özü belə bir məktəbin artmağına səbəb oldu". O vaxt bir vaxt idi ki, müəllimlərdən başqa ziyalı yox idi. Bir və ya iki rus, Avropa darülfününu qurtaran var idisə də, onlar da milyonçulara qarışıb günlərini eyş-işrətlə keçirirdilər".

Böyük mütəfəkkir müəllimlərin rolunu yüksək qiymətləndirərək yazırdı: "Hal-hazırda nə ilə özünüzə təsəlli tapırsınız? Şəhər dumasında bəzi oxumuşların bulunmasına, ya əlinizdə olan qəzetlərəmi? Bunları böyük səadət hesab edirsiniz?...Lakin insafı əldən buraxmayınız, bir yaxşı fikir ediniz! Kim idi məclislərdə, qəzetlərdə bağıran-çağıran, yazan ki, bizə milli qəzet lazımdır? Müəllimlər deyildilərmi?" Bununla yanaşı, Nəriman Nərimanov "Müəllimlər ictimainə dair" məqaləsində Henrix Pestalotsi haqqında məlumata geniş yer verərək yazır ki, "...öz sadə müəllimlik peşəsi ilə necə böyük xidmətlər etmək olar millət üçün. Vaxtsız atasız qalan, anası və dayəsinin minbir əziyyətlə böyüdüb oxutduğu bu gənc oğlan başqalarına şəfqətlik dərsini elə həmin qadınlardan almışdı. Başqalarına kömək etmək, bilik və bacarığını onlara sevgi ilə mənimsətmək, uşaqlar ağlayanda ağlamaq, uşaqlar güləndə gülmək... uşaqlar onu ən əziz adamları kimi sevirdilər. Pestalotsi öz şagirdlərinə təkcə bilik öyrətmirdi, onları həyata hazırlayırdı. O, öz pedaqoji əsərləri ilə dünyada tanındı və əbədi ömür qazandı..."

XIX-XX əsrlərin qovşaqlarında yeni məktəblərin açılmasında fədakarlıq edən ziyalılardan biri də Məhəmməd Tağı Sidqi idi. Sidqi o maarifçilərdən idi ki, diplomlu deyildi, mədrəsə qurtarmışdı, klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənmişdi. 1892-ci ildə maarifçi ziyalı Hüseyn Sultan Kəngərli ilə birgə Naxçıvanda "Məktəbi-tərbiyə"ni təsis etmiş, xalq müəllimi kimi şöhrət tapmışdır. Bundan əvvəl və sonra bir çox maarifçi ziyalılarımız əgər yenitipli məktəblər uğrunda çalışırdılarsa, Sidqi həm də həmin məktəbin tədris vəsaitlərini özü təmin etməyə çalışırdı. Öz yazıları, nəsihətli hekayələri ilə həm özünün çalışdığı məktəbin şagirdlərini milli vətəndaş kimi yetişdirməyə çalışır, həm də "Dəbestan" jurnalında çap etdirərək başqa məktəblərə də köməklik göstərirdi. M.T. Sidqi dərs dediyi uşaqlara milli tərbiyə, təhsil, intizam, düzgün anlama, sədaqətli və ədəbli olmaq, doğruculuq, təmizlik, əliaçıqlıq, ətrafdakılara sevgi aşılayırdı. Dahi Hüseyn Cavid M.T.Sidqi haqqında yazırdı: "M.T.Sidqi vətənpərvər idi... Məslək sahibi idi, millətini sevərdi... Bu hal 5-6 il davam etdi. Sonra zavallı Sidqi getdi, məktəbin məktəbliyi də onunla bitdi... Sonra məktəb nə zərər verdi, nə xeyir gətirdi... Çünki məktəbi o hala qoyan hökumət barmağı oldu..."

"Pedaqoji fikir tarixindən" kitabında bəhs edilən maarifçi-ziyalılarımızdan biri də Məhəmməd ağa Şahtaxtlıdır. Məhəmməd ağa Şahtaxtlı dövrünün Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi və başqa görkəmli ziyalılarını ətrafında toplayaraq mətbuatı milli maraqlara xidmət vasitəsinə çevirmişdir. Onun uğurla başçılıq etdiyi qəzetdə ana dili ilə bağlı islahatlar, maarifin yayılması, məktəblərdə təhsil sisteminin inkişaf predmetləri və sair məsələlər əsas mövzunu təşkil edirdi. Ümumiyyətlə, Məhəmməd ağa Şahtaxtlının əsas məqsədi türk-müsəlman xalqlarını maarif və mədəniyyətə cəlb etməkdən ibarət olmuşdur. Azərbaycanın nəhəng pedaqoji fikir sahiblərinin çox böyük fədakarlıqlarının nəticəsi idi ki, XX əsrin ilk onilliklərində cəmiyyətdə milli şüur, müstəqillik kimi ideyaları ucadan səslənməyə başlanmışdı. Həmin milli ideyaların yaranma mənbəyi, əlbəttə, milli məktəblər və o məktəblərdə dərs deyən vətənpərvər, millətsevər, müstəqillik carçıları, azadlıq ideyalarını zehinlərə yeridən pedaqoqlarımızın əvəzsiz fəaliyyətinin məhsulu idi. Nəinki Azərbaycanda bütün Türk dünyasında həvəslə qəbul edilən türkləşmək, islamlaşmaq, müasirləşmək ideyaları Əli bəy Hüseynzadənin simasında milli əqidənin ifadəsinə çevrilmişdir. Zaman da bu ideyanın doğruluğunu sübut etdi: Azərbaycan Şərq aləmində ilk demokratik dövləti yaratdı. Bu gün müstəqil Azərbaycan Respublikası da 1918-ci ildə yaradılmış və 23 ay fəaliyyət göstərmiş həmin Xalq Cümhuriyyətinin tarixi varisidir. Bütün bunlar isə onu təsdiq edir ki, Azərbaycanın Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, Nəriman Nərimanov kimi pedaqoji fikir sahibləri xalqımızın maariflənməsində böyük xidmətlər göstərmişlər. Bu ziyalılarımızın fəaliyyəti Azərbaycan maarif və təhsilinin təməl bazası olmaqla yanaşı, xalqımız tərəfindən də daim minnətdarlıqla xatırlanılır.

**Dadaş QASIMOV**
***Kəngərli rayon Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin tarix müəllimi***

## Arıçıların iştirakı ilə seminar-müşavirə keçirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Naxçıvan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Dövlət Baytarlıq Xidmətinin, "Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin, AMEA Naxçıvan Bölməsinin və "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin əməkdaşları Şərur Rayon İcra Hakimiyyəti ilə birgə arıçılıq təsərrüfatı sahibkarlarının iştirakı ilə "Payız mövsümündə arıxanalarda baytarlıq tədbirlərinin aparılmasının və arıxanaları qışlamaya hazırlamağın əhəmiyyəti" mövzusunda seminar-müşavirə keçiriblər.



Müşavirəni Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Yasin Seyidov açaraq rayonda arıçılığın inkişafından və göstərilən dövlət dəstəyindən danışıb.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayev çıxış edərək vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın və Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı ilə bağlı tədbirlər planının icrasına uyğun olaraq bu sahənin inkişafı dövlət tərəfindən daim dəstəklənərək sahibkarlara subsidiya, kredit, pulsuz arı dərmanları verilir. Arı ailələrinin köçürülməsi üçün ərazilər ayrılır, bal süzən dəzgahların və arı pətəklərinin lizinq qaydasında sahibkarlara satılması, arıçılıq məhsullarının satışı üçün təşkil olunan "Arıçılıq məhsulları – bal festival"ları və yarmarkalar arıçılıqla məşğul olan sahibkarlara stimul verir.

"Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri Etibar Məmmədov, Dövlət Baytarlıq Xidmətinin sektor müdiri Hüseyn Məmmədov və tədbirdə iştirak edən dövlət qurumlarının əməkdaşları mövzu ətrafında çıxışlar edərək arıçılıqda məhsuldarlığın artırılmasında vacib mənbələrdən biri kimi arı ailələrinin payızda qışlamaya hazırlanması işinin düzgün təşkili və arıxanalarda cavan arı analarının olmasının böyük əhəmiyyətindən danışıblar.

Sonda təsərrüfatçıları maraqlandıran suallar cavablandırılıb, mütəxəssislər tərəfindən hazırlanan maarifləndirici bukletlər müşavirə iştirakçılarına paylanıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan idmançısı növbəti dəfə Azərbaycan çempionu olub



Bakı şəhərində pauerliftinq, deadlift və benç press üzrə kişilər və qadınlar arasında açıq Azərbaycan çempionatı keçirilib. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Pauerliftinq Federasiyası tərəfindən birgə təşkil olunan yarış 17-19 sentyabr tarixlərini əhatə edib.

Muxtar respublika idmançısı, milli komandanın üzvü Əli Əsgərov benç press növündə uğurlu nəticəyə imza atıb. Belə ki, təmsilçimiz 215 kiloqramlıq ağırlığın öhdəsindən gələrək öz çəki dərəcəsində (90 kiloqram) birinci yerə sahib çıxıb. Digər təmsilçimiz Turan Qədimli (75 kiloqram) də mükafatçılar sırasına düşüb. O, benç press yarışında 160 kiloqramlıq nəticə ilə 2-ci olub. İlk üçlükdəki idmançılara diplom, kubok və medal təqdim edilib.

Qeyd edək ki, Əli Əsgərov dekabr ayında Rusiyanın paytaxtı Moskva şəhərində keçiriləcək dünya çempionatında ölkəmizi təmsil edəcək.

## İdmançılarımızdan uğurlu nəticə



Bakı şəhərində uşu idman növü üzrə 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş klublararası respublika turniri keçirilib. Yarışda Naxçıvan Kikboksinq Federasiyasının idmançıları da iştirak edib. Məşqçi Kəmaləddin Rzayevin rəhbərliyi altında yarışa yeddi idmançımız qatılıb. Onlardan 6-sı mükafatçılar sırasına düşməyi bacarıb.

Təmsilçilərimizdən Fərişad Süleymanlı (14 yaş, 45 kiloqram), Məmməd Məhəmmədov (13 yaş, 47 kiloqram), Enes Babayev (11 yaş, 20 kiloqram) və Əli Nəsurullayev (11 yaş, 30 kiloqram) müvafiq çəki və yaş kateqoriyaları üzrə 1-ci olublar. Turqay Həsənov (2008, 42 kiloqram) və İsməddin Rzayev (2011, 39 kiloqram) yarışı ikinci sırada yekunlaşdırıblar. Bu nəticələrlə Naxçıvan komandası turniri 4 qızıl və 2 gümüş medalla tamamlayıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** Yanğın təhlükəsizliyi qaydalarının pozulması və ya yerinə yetirilməməsi hansı məsuliyyətə səbəb olur?

***Cavab***: İnzibati xətalar qanunvericiliyinə əsasən mülkiyyət formasından asılı olmayaraq, müəssisə, idarə və təşkilatlarda, ictimai yerlərdə, anbarlarda, yataqxanalarda və ya digər yaşayış sahələrində, meşələrdə və nəqliyyatda yanğın təhlükəsizliyi standartlarının, normalarının və qaydalarının tələblərinin pozulmasına və ya yerinə yetirilməməsinə görə fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar iyirmi manatdan otuz manatadək məbləğdə cərimə edilir, vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə cərimə edilir. Eyni hərəkətlərin yanğına qarşı xüsusi rejim şəraitində törədilməsinə görə fiziki şəxslər otuz manatdan əlli manatadək məbləğdə, vəzifəli şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan yeddi yüz əlli manatadək məbləğdə cərimə edilir. Həmçinin cinayət qanunvericiliyinə əsasən üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Həmçinin eyni əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### *İtmişdir*

Nuriyev Əsgər Həşim oğlunun adına olan avtomobilin CD-291 seriya nömrəli qeydiyyat nömrəsi itdiyindən etibarsız sayılır.

***

Novruzov Natiq Yaqub oğlunun adına 25.07.2015-ci ildə verilmiş 0040770 nömrəli dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

***

Rüstəmov Azər Əhməd oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Əzimov Hüseyn Hüseynalı oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 789